ÖZÜ HİKMƏT, SÖZÜ HİKMƏT

(Əvvəli ötən sayımızda)

Yazarın, yəni şairin, yazıçının, dramaturqun, publisistin... bir sözlə, sözə güvənən, sözə istinad edən, sözü yazan sənətkarın dünya görüşü genişdirsə, təfəkkürü zəngindirsə, həyatı müşahidə imkanları varsa və əlbəttə, həm də istedadlıdırsa, onun qələmindən çıxan hər hansı bir yazı əlvan bahar çəmənlərinə bənzəyər. Söz gülləri bu çəməni bəzəyər, fikir əlvanlığının özünəxas söz donunda təzahürü qeyri-adi cazibə yaradar. Arılar bal çəkmək üçün çiçəklərə doğru necə uçursa, insan qəlbi də qeyri-adi sözün gözəlliyi önündə uçunar, titrəyər, sözün mənasını, əgər belə demək mümükünsə, ətrini, qoxusunu öz varlığına çəkər.

Hikmət Mahmudun zəngin və rəngarəng poetik aləmi, yazı dünyası bütövlükdə "qanadlı" sözlərin geniş və əhatəli meydanına bənzəyir. Yeri gəldikcə o, hikmətli beytlər, aforistik misralar atalar sözü mənziləsində deyimləri ilə oxucularının məhəbbətini qazanıb, sevgisini qazanıb. İnsan qəlbinin geoloqu olaraq o, hər kəsə həssaslıqla yanaşdığı kimi, qarşılaşdığı mühitin, eləcə də hər kəsin əməlinin dəyərini ümumiləşmiş düstur formasını almış tezis formatında deyimləri ilə qiymətləndirə bilir.

Hikmətli kəlamları ilə çıxışlarında nitqini bəzəyən şairin dinləyiciləri onun həssas, duyğulu, "qanadlı" sözlərini sevgi ilə yaddaşına alır. Və yeri gəldikcə "Hikmət müəllim demiş..." başlanğıcı ilə ondan istifadə edir, yararlanırlar.

"Qanadlı" sözlər əlbəttə, nə qədər müəllifli olsa da, xalq yaddaşına köçməklə elə xalqın sərvətinə çevrilir, milli düşüncəni zənginləşdirir.

Görkəmli nasir, publisist, klassik jurnalistikamızın unudulmaz simalarından biri Cəmil Əlibəyov ona qısa məktub-aftoqrafında yazırdı: *"Çox hörmətli Hikmət müəllim, Sizin coşğun çıxışınızdan sonra Yazıçılar Birliyində keçirilən yubiley təntənəsi iştirakçılarından, sizi şəxsən tanımayanlar soruşurdular:*

- Professor, Sizin nəyinizdir? Qohumsunuz?

Dedim: Ən yaxın əqrəbam, yarım əsrdən çox tarixi olan dostumdur. O, təkcə bir ürəyin sözlərini demirdi. Böyük, nəcib bir ailənin, Rəşid Mahmudov kimi görkəmli qələm sahibi və ictimai xadimin - bənzəri olmayan pak və sədaqətli bir insanın məhəbbətini, qədirdanlığını ifadə edirdi! Əsl şair kimi!.

Çox sağ ol, dostum! Soyuq siklona məruz qalmış dostunuza isti nəfəsinizlə xoş ruh gətirdiniz!

Sizin Cəmil Əlibəyov, 2008".

Dağrudur, aftoqraflarda öz kitabını bir doğma insana, dosta, və oxucuya bağışlayanda müəlliflər çox vaxt şablon ifadələrdə soyuq düşüncənin bəhrəsi olan cümlələrdən istifadə edirlər, ancaq göründüyü kimi, Cəmil Əlibəyov bu qısa, yığcam, lokonik məktub-aftoqrafında Hikmət Mahmudun insan kimi səmimiyyətini, şair kimi coşqun təbiətini əsil-nəsil, kök ənənələrinə sədaqətinə qədər reallığı ilə verə bilmişdir. Əlbəttə, Cəmil Əlibəyovun sözlərindəki istiliyin, hərarətin Hikmət Mahmudun alovlu, odlu çıxışından gəldiyini duymamaq mümkün deyil.

Hikmət Mahmud həyatı boyu insan aləminin dərinliklərinə müşahidəsi, psixoloji instinkti ilə nüfuz etməyə çalışmışdır. Yəqin ki, bu da onun bilavasitə ixtisası olan geoloq təbiətindən irəli gəlir. Cünki geoloqlar yerin dərinliklərində nələrin olduğunu elmin gücünə, elmdən aldıqları peşə vərdişlərinə görə təyin edə bildikləri kimi, elə insan qəlbinə də həssas münasibət və nüfuz etməyin mümkünlüyünü yaxşı bilirlər.

Sənətkar üçün həyat mövzu mədənidir. Əgər sənətkar psixoloji cəhətdən kifayət qədər hazırlıqlıdırsa, həm də onun ilahidəngəlmə enerjisi, yəni istedadı varsa, həyatın özündə görünən və sənətkarı çağıran mövzuları da aydın görə biləcək. Elə bu fikrin davamı olaraq qeyd edirəm ki, hərdən mənə elə gəlir sonsuz sayda mövzuların üstüncə yeriyirəm. Sanki ayaq basıb keçdikcə bu canlı mövzular incik nəzərləri ilə məni süzür, dilsiz baxışlarilə "bizdən ötüb keçmə", - deyir. İndi Hikmət Mahmudun zəngin fikir aləmini, söz çəmənləri boyunca gəzdikcə düşünürəm ki, elə o da bu hissləri yaşayır, yoxsa oxucunun düşüncəsini öz təsiri altına alan, oxucunu öz cazibəsinə çəkən "qanadlı" sözləri belə həssaslıqla işlədə bilməzdi.

11.Yaxşı insanları axtarma, sən yaxşı olsan onlar özləri gəlib səni tapacaqlar.

Qədim Yunan filosoflarından biri Diogen haqqında belə bir rəvayət var.

O, əldə çıraq günün günorta çağı Aqoranın içindən keçirmiş.

Soruşurlar:

-Diogen, sən belə bir işıqlı gündə çıraqla nə gəzirsən?

Diogen:

-Mən adam axtarıram, mənim gəzdiyim insandır.

Adamlar təəccüblə çiyinlərini çəkirlər:

-Necə yəni adam gəzirsən?

Diogen:

-Bəli, bəli, mən adam gəzirəm, bəlkə, görəniniz var?

Diogen haqqında bu rəvayət minillikləri keçib, zəmanəmizə təsadüfən gələ bilərdimi? Bəs onda bu rəvayəti zəmanəmizə gətirib çatdıran hansı enerjidir? Daha dəqiqini desək, hansı həqiqətdir?

Diogen öz çırağı ilə adam axtardığını deyəndə əslində, öz zəmanəsinə ironiyasını bildirirdi. Baxmayarq ki, insanlarona gülürlər, təəccüblənirlər. Ancaq zaman keçdikcə həqiqətə daha çox yaxınlaşmaq imkanı yarandıqca, Diogeni, əslində, zəmanəsinin bilicisi olduğunu anlayırlar.

Təqribən Hikmət Mahmud öz oxucusuna, yaxud dinləyicisinə bu fikrin tərsi ilə müraciət edir. Yəni, sən günün günorta çağı əldə çıraq gəzsən də yaxşı adamı tapa bilməzsən, ancaq özün yaxşı olmaqla yaxşıları ətrafına cəzb edə bilərsən, onlar sənə doğru məmnuniyyətlə gələ bilərlər. Buradan çıxan nəticə budur ki, insan gərək həyatını yaxşı istək üzərində qursun. Əməli ilə insanlara xeyir gətirsin. Onda insanlıq onun dəyərini uca tutar, qədrini bilər, kimliyi dildə, ağızda gəzər, hörmət və məhəbbət adlanan ən yaxşı mükafatın sahibi olar.

12.Dili xoş sözə, əli zəhmətə öyrədə bilsən, ən müdrik və ən sevimli insansan.

Məlum məsələdir ki, dili acı adamdan hər kəs uzaq olmağa çalışır. Əlbəttə, burada müəllif şit, bayağı, təlxəkləsayağı süni gülüş doğuran və yaxud yarınmaqla insanların diqqətini cəlb etməyə çalışanlardan danışmır. Şübhəsiz, əsası olmayan kimsəyə yaxşı heç nə vəd etməyən şirin yalanları da nəzərdə tutmur. Müəllif həqiqətə tapınaraq insanlara qəlbini isindirən, ümidi üzülməyə qoymayan hər kəsə inam bəxş edən sözü nəzərdə tutur. Yaxşı söz deyəndə insanı fərəhləndirən sözün dəyərini göstərmək istəyir. Əlbəttə, müəllif təkcə yaxşı sözlə kifayətlənmir. O, həm də istəyir ki, yaxşı söz sahibi həm də, halal zəhmət sahibi olsun. O, öz zəhməti ilə Nizami demiş: - Aləmi bəzəsin. Və beləliklə, müəllif fikrini cəmləşdirir. Dili xoş söz, əli zəhmət yükü daşıyan insanı ən müdrik və sevimli insan cərgəsinə gətirir.

13.Toyda ol, yasa tələs.

Dədə-babadan xalqımızın ənənəsi var. Elin-obanın toyundan, yasından qıraqda qalmaq olmaz. Ancaq müəllif bu fikri bir qədər də lokonikləşdirir, qismən improvizə edir, həm də ona yeni məna çaları gətirir. Toyda ol deməklə gününü yeyib-içməyə sərf et demək istəmir, demək istəyir ki, toya getmək, toy sahiblərini təbrik etməklə onun sevincinə şərik olduğunu bildirmək borcun var. Əgər bu imkanı özündə görürsənsə, və bu mənəvi borcunu yerinə yetirmisənsə, daha toyda əndazədən çıxanacan qalmağın nə mənası? Müəllif "yasa tələs" deyir. Yeni kədərli insanın dərdi onu boğa bilər, sən özünü çatdırmaqla qismən onu ağır dərdin caynağından xilas etmiş olarsan. Beləliklə, bu, həm də sənin həyatdan getmiş olana sonuncu ehtiram borcun olardı. İnsanlığa sonuncu ehtiram borcunu verməkdən üstün heç nə yoxdur. Müəllif məhz bu həqiqəti diqqətə çatdırmaq istəyir.

14.Qadınlar təbiətin ən zərif, ən sirli və ən mürəkkəb varlıqlarıdır. Onların dilini müdrik zəka sahibləri bir də yaradan Allah bilər.

Hikmət Mahmudun bu qənaətləri üzərində düşünərkən birinci növbədə onun qadınlara hörməti və ehtiramını, sevgili münasibətini hiss edirsən, həm də, müəllif diqqətə çatdırır ki, qadınlar təbiət etibarilə mürəkkəb varlıqlardır. Onları anlamaq, duymaq asanlıqla və tezbazarlıqla mümkün deyil. İllər boyu tanıdığımız bir qadının daxili mənindən gələn səsi dinləyib, onun istəyinin nə olduğunu anlamırıqsa, demək onu başa düşmürük, demək, onu tanımırıq. Ancaq Hikmət Mahmud məsələyə bir az da nikbin yanaşır. O, qeyd edir ki, müdrik insanlar, yəni həssas, qadına xüsusi hörmət, ehtiram bəsləyə bilən təmkin sahibi onu başa düşə bilər, onun dilini anlayar. Əlbəttə, fövqəlvarlıq kimi yaradanın qadının təbiətindəki gizlinlərdən xəbərdar olduğunu da etiraf edib. Bununla demək istəyir ki, qadın nə qədər sirli bir varlıq olsa da, onun da sirrini bilmək və anlamaq mümkündür. Əlbəttə, bunun üçün müdrikliyin, zəkan, zəngin mənəvi aləmin olmalıdır.

15.Atasız-anasız böyüyən uşaq səmada uçan tənha quşa bənzər.

Əlbəttə, hər bir övlad ata-ana qayğısı ilə böyüməlidir. Bu zaman onun mənəvi mühitində psixoloji zədə olmaz, yaxud da daha az olar. Müharibələr, qəzalar, müxtəlif xəstəliklər uşağı atadan, anadan, yaxud da hər ikisindən məhrum edə bilər. Bu, tale işidir. Əlbəttə, belə uşaq çətin böyüyəcək. Əgər mümkün həyat şəraiti olarsa, onlar həyatın ağır zərbələrini görmüş olduğundan daha hazırlıqlı olar. Ancaq olur ki, ata, yaxud ana, bəzən də hər ikisi ailədən, uşaqdan imtina edir. Atalı, analı yetim olmaq onun mənəvi qanadlarını qırır, hələ vaxtından əvvəl sındırır, müxtəlif qınaqlara məruz qoyur və belə uşaqlar bütün həyatlarını ən ağır iztirablar içərisində yaşamalı olurlar. Hikmət Mahmudun belə uşaqları səmada uçan tənha quşa bənzətməsi təbiidir. Həyatı müşahidənin nəticəsidir. Ancaq o, bu ifadəsi ilə atasızlıq, anasızlıq iztirablarını yaşayan uşaqlara cəmiyyətin, insanların xüsusi diqqət və qayğı göstərməli olduqlarını bildirir. Bunu cəmiyyətin ən vacib missiyası hesab edir.

16.Sözü qışqıra-qışqıra deyən adam insanlıqdan uzaqdır.

İnsanlar zaman boyu müəyyən ədəb qaydaları yaradıblar. Və hər kəsi bu ədəb qaydalarına uyğun yaşamaq, fəaliyyət göstərmək üçün təhrik edirlər. Bir anlığa düşünsək ki, insanlar ədəb-ərkandan çıxıb, ədəbi, mərifəti bir kənara atıb, onda cəmiyyətdə nələr olardı? Bütün mənəvi borclar, insanlığın yaratdığı üstün keyfiyyətlər ayaqlar altına atılardı. Şair insanlar arasında sakit, ədəblə, təmkinlə danışmağı insanlığın əsas şərtlərindən hesab edir. Ətrafı saymadan qışqıra-qışqıra danışmaq insanlara hörmətsizlikdir. Başqa sözlə, müəllifin dediyi kimi, beləldəri insanlıqdan uzaqdır. Şair Hikmət Mahmud öz kredosuna sadiq qalaraq insanları insanlığını yaratdığı qaydalara əməl etməyə çağırır.

17.Ata-ananın sözünə əməl etmək, Tanrıya itaət etmək kimidir.

Şair atanın-ananın timsalında Yaradanın missiyasını görür. Ona görə də hər bir övladın ata-anaya hörmət və ehtiramla itaət etməsi cəmiyyətin nizamını qorumaqdır. "Dədə Qorqud" kitabında da biz övlad, ata-ana münasibətlərinin harmoniyasını görürük. Ulu dədəmiz də atasının, anasının ehtiramını saxlayan övladı yüksək qiymətləndirir. Şübhəsiz, Hikmət Mahmud Yaradanın yoluna düz olanların uğur sahibi olacağlarına inandığından həmin fikri dilinə gətirib. Əgər Yaradanın yoluna sadiqsənsə, demək, ata-ana yoluna da sadiq olmalısan. Ata-ana sözünü də eşitməyə borclusan.

18.Dar məqamda arxadır, yaxşı arvad, yaxşı dost.

Cəmiyyətin daxilində baş verən kataklizmlər, inqilablar, müharibələr insan münasibətlərinin harmoniyasını dağıdır. Siyasi əqidə davaları doğmaları bir-birinə qarşı qoyur. İnsanlar bir-birinə qənim kəsilirlər. Müharibələr də belədir. Müharibələr əhd-peymanları pozur, insanların taleyini qara rəngə boyayır. Yaranmış böhran insanın doğma hisslər məcrasını dəyişir. Ancaq çox az qisim adamlar olur ki, bir-birinə sədaqət hisslərini qoruyub saxlayırlar. Vəfalı arvad öz ərinin xoş günündə onunla birgə olduğu kimi, dar günündə də onu tərk etmir. Əzablarını, iztirablarını bölür. Və beləliklə, mənən yüksəlir, ucalır, qeyrilərinin təqdirini qazanır. Sədaqətli dostlar da belədir. Nə qədər çətinlik olursa-olsun sədaqətli dost illər boyu qazanılmış ülfəti, sevgini ayaqlayıb keçmir. Doğma münasibəti ilə dostluq mərtəbəsini qoruduğunu sübut edir. Ona görə də Hikmət Mahmud dar məqamda insana arxa-dayaq görür vəfalı qadınını, sədaqətli dostunu.

"Qanadlı" sözlər ruhumuzun qidasıdır. Mənəvi mühitimizdə ətrafın biganəlik küləkləri tuğyan eləyib. Fikir və düşüncələrimizi səmum yellərinə qərq etsə də, yadımıza düşən bir qanadlı söz ruhumuzun, varlığımızın harmoniyasını qoruyur, bizdə gələcəyə inam yaradır, ümidin qırılmazlığını təlqin edir. Şübhəsiz Hikmət Mahmudun hikmətli kəlamları, qanadlı sözləri də bu üstün dəyərə layiqdir.

(Davamı var)